Məmmədov Fərid Arif oğlu,
Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının baş metodisti
Ünvan: AZ 1000, Bakı şəhəri, Vidadi küçəsi, 158
E-mail: f.mamadov777@gmail.com

UOT 342.565.2
DOI: https://doi.org/10.30546/2218-9130.060.2026.0127

AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA MƏHKƏMƏSİNİN MƏHKƏMƏ NƏZARƏTİ HAQQINDA HÜQUQİ MÖVQELƏRİ

Açar sözlər: *cinayət prosesi, məhkəmə nəzarəti, konstitusion təfsir, hüquqi mövqelər, qanun, təkmilləşdirmə, təkliflər.*

Ключевые слова: *уголовный процесс, судебный контроль, конституционное толкование, правовые позиции, закон, совершенствование, предложения.*

Keywords: *criminal process, judicial control, constitutional interpretation, legal positions, law, improvement, proposals.*

Azərbaycan Respublikasında müstəqillikdən sonra məhkəmə hakimiyyətinin formalaşması tarixində ən əlamətdar hadisə 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsində (referendumda) yeni və ilk milli Konstitusiyanın qəbul edilməsi olmuşdur. Belə ki, yeni Konstitusiyanın VII fəsli tamamilə Məhkəmə hakimiyyətinə həsr edilmiş, onun bir sıra digər maddələrində məhkəmə hakimiyyəti üçün prinsipial əhəmiyyət kəsb edən müddəalar yer almışdır. Məhkəmə nəzarəti institutunun təməli də məhz yeni Konstitusiyada qoyulmuşdur. Belə ki, Konstitusiyanın 28-ci maddəsinin II hissəsi, 33-cü maddəsinin II hissəsi, 60-cı maddəsinin IV hissəsi, 71-ci maddəsinin I və VII hissələri və s. bu kimi müddəalar cinayət mühakimə icraatında məhkəmə nəzarəti institutunun konstitusion-hüquqi əsaslarını təşkil edir [1].

Məhkəmə nəzarətinin mahiyyəti ilə bağlı bir sıra müddəalara Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarlarında rast gəlmək mümkündür. Bu səbəbdən, cari məqalədə məhkəmə nəzarəti institutu haqqında konstitusion təfsirə əsaslanan təməl təsəvvür əldə etmək üçün həmin qərarlara nəzər salmağı məqsədəuyğun hesab edirik.

Konstitusiya Məhkəməsinin 06 yanvar 2004-cü il tarixli Qərarında ifadə edilmiş hüquqi mövqenin mahiyyətinə görə, yeni cinayət-prosessual qanunvericiliyin tələblərinə əsasən, cinayət mühakimə icraatında şəxsiyyətin hüquqlarının, yaxud azadlıqlarının müvəqqəti olaraq məhdudlaşdırılması ilə əlaqədar məsələlərin hamısı, həmçinin məhkəməyədək icraatda şəxsin barəsində qətimkan tədbiri növündə həbsin seçilməsi, eləcə də artıq seçilmiş həbs qətimkan tədbirinin müddətinin uzadılması kimi məsələlər müstəsna olaraq, məhkəmə nəzarəti institutu vasitəsilə həll edilir. Əslində, məhkəmə hakimiyyətinin həyata keçirilməsinin bütün formaları özündə bu və ya digər dərəcədə məhkəmə nəzarəti elementlərini ehtiva edir. Lakin məhkəmə nəzarətinin məhz məhkəməyədək icraatda mövcudluğu və tətbiqi

xüsusi əhəmiyyət kəsb edir. Belə ki, məhkəməyədək icraatda məhkəmə nəzarəti cinayət təqibini həyata keçirən dövlət orqanlarının səlahiyyətli şəxslərinin yerinə yetirdikləri prosessual hərəkətlər, qəbul etdikləri prosessual qərarlar, o cümlədən yerinə yetirməli olduqları halda, yaxud qəbul etməli olduqları halda prosessual hərəkətləri yerinə yetirməmələri, prosessual qərarları qəbul etməmələri, yəni hərəkətsizlik göstərmələri ilə əlaqədar hüquqları və azadlıqları məhdudlaşdırılmış şəxslər tərəfindən verilmiş şikayətlərə baxılaraq həll edilməsi, həmçinin şəxsiyyətin konstitusion hüquqlarının və azadlıqlarının məhdudlaşdırılmasına yönəlmiş istintaq hərəkətlərinin məcburi qaydada həyata keçirilməsi, prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi, əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə məhkəmə razılığının verilməsi formalarında təzahür olunur. Nəzərdən keçirilən qərarda ifadə edilmiş hüquqi mövqedə məhkəmə nəzarəti ideyasının mahiyyəti üç əsas istiqamətdə izah edilir.

Birinci istiqamət qanunçuluğa nəzarət istiqamətidir. Belə ki, məhkəmə nəzarəti ideyasının mahiyyətinə görə, əgər məhkəməyədək icraatda şəxsiyyətin hüquqlarının və azadlıqlarının məhdudlaşdırılması halları baş verərsə, bunun qanuni, yaxud qeyri-qanuni baş verməsi üzərində prosessual nəzarət funksiyasını məhz məhkəmə həyata keçirməlidir, çünki məhkəmə cinayət prosesinin tərəflərindən heç birinə aid olmayıb (o, nə ittiham tərəfinə, nə də müdafiə tərəfinə aiddir), müstəqil hakimiyyət orqanı kimi çıxış edir.

İkinci istiqamət dövlət orqanlarının prosessual funksiyalarının bölgüsü istiqamətidir. Belə ki, məhkəmə nəzarəti ideyasının mahiyyətinə görə, cinayət mühakimə icraatının həyata keçirilməsində iştirak edən dövlət orqanlarının prosessual funksiyaları dəqiqliklə bölüşdürülmüş olmalı, onlardan biri digərinin prosessual funksiyasını öz üzərinə götürməməli, onu mənimsəməməlidir. Bu mənada, cinayət mühakimə icraatında cinayət təqibini həyata keçirən orqanlar ehtimal edilən, yaxud həqiqi, eləcə də artıq baş vermiş, yaxud hazırlanan cinayət əməlləri ilə bağlı ibtidai araşdırma həyata keçirməli, zəruri hallarda təqsirləndirilən şəxsin barəsində həbs növündə qətimkan tədbirinin seçilməsi haqqında təşəbbüslə çıxış etməlidirlər (yəni özləri həbs qətimkan tədbirini seçməməli, seçilmiş həbs qətimkan tədbirinin müddətini uzatmamalıdırlar), məhkəmə isə öz səlahiyyətləri və qanunla müəyyən olunmuş hüquqi prosedurlar hüdudlarında təqsirləndirilən şəxsə qarşı irəli sürülmüş ittihama mahiyyəti üzrə baxmalı, məhkəməyədək icraatda isə şəxsiyyətin hüquqlarının və ya azadlıqlarının məhdudlaşdırılması zərurəti yaranarsa, bu barədə qərar qəbul etməlidir.

Üçüncü istiqamət məhkəmə müdafiəsi hüququnun təminatı istiqamətidir. Belə ki, konstitusion hüququnun və ya azadlığının məhdudlaşdırılması təhdidi ilə üz-üzə qalmış hər bir şəxs məhkəməyə müraciət etməklə öz hüquqlarının və azadlıqlarının məhkəmə müdafiəsi hüququndan istifadə edə bilməlidir. Belə istifadə imkanı operativ və effektiv xarakter daşımalıdır.

Məhkəməyədək icraatda məhkəmə nəzarəti institutunun mövcudluğu şəxsiyyəti cinayət təqibini həyata keçirən dövlət orqanlarının vəzifəli şəxslərinin özbaşınalığından müdafiə edir, ədalət mühakiməsinin səmərəliliyinin artmasına və cəmiyyətdə ədalət mühakiməsinə inam və etimadın səviyyəsinin yüksəlməsinə xidmət edir [2].

Konstitusiya Məhkəməsi Plenumunun 05 avqust 2009-cu il tarixli Qərarında nümayiş etdirilmiş hüquqi mövqenin mahiyyətinə görə, məhkəmə nəzarəti institutu ilə sıx bağlı olan şikayət etmək hüququ şəxsiyyətin hüquqi statusunun tərkib hissəsi olan hüquqların və vəzifələrin ayrılmaz elementidir və qanunda bu barədə birbaşa göstərişin nəzərdə tutulmadığı müddətcə, dövlət fəaliyyətinin heç bir sferasında bu hüquq məhdudlaşdırılmaya məruz qalmama-

lıdır. Şikayət etmək hüququ dövlətin hakimiyyət orqanlarının vəzifəli şəxsləri münasibətə daxil olan bütün insanlar üçün təminat rolu oynamalıdır. Şikayət etmək hüququ cinayət mühakimə icraatında və onun məhkəməyədək olan mərhələlərində isə xüsusi əhəmiyyət daşıyır, çünki cinayətkarlığa qarşı mübarizənin aparılması və ədalət mühakiməsinin həyata keçirilməsi zamanı bəzən təhqiqat aparan şəxslər, müstəntiqlər, ibtidai araşdırma üzərində prosessual rəhbərlik edən prokurorlar və hətta hakimlər qeyri-qanuni və ya əsassız prosessual qərarlar qəbul edə, prosessual hərəkətlər həyata keçirə bilər, yaxud qanunun tələbinə görə müəyyən prosessual qərar qəbul etməli və ya prosessual hərəkət etməli olduqları halda heç bir əsas olmadan, qanunun ziddinə bunu etməyə, yəni hərəkətsizlik göstərə bilərlər ki, bu da öz növbəsində, cinayət mühakimə icraatında iştirak edən subyektlərin hüquqlarının və azadlıqlarının məhdudlaşdırılmasının qanunla yol verilən hüdudlarının pozulması ilə nəticələnə bilər.

Cinayət mühakimə icraatında iştirak edən subyektlərin qanunla qorunan maraqlarını və hüquqlarını təmin etmək əməliyyat-axtarış fəaliyyəti və cinayət təqibi orqanlarının, o cümlədən, prokurorluq orqanlarının və həmçinin məhkəmənin ən vacib vəzifələrindəndir. Şəxsiyyətin hüquqlarına, ələlxüsus da cinayət mühakimə icraatında iştirak edən insanların hüquqlarına zəruri həssaslıq göstərilmədən cinayətkarlığa qarşı effektiv mübarizənin aparılması, əsl ədalət mühakiməsinin həyata keçirilməsi qeyri-mümkündür. Cinayət mühakimə icraatında iştirak edən subyektlərin qanunla qorunan maraqlarının və hüquqlarının təmin və müdafiə olunması hüquqi dövlət ideyasının ayrılmaz tərkib hissəsidir, çünki bu yanaşma təkcə şəxsiyyətin mənafeləri baxımından deyil, bütövlükdə cəmiyyətin mənafelərinin gözlənilməsi baxımından vacibdir. Məhz bu səbəbdən, qüvvədə olan cinayət-prosessual qanunvericiliyində cinayət mühakimə icraatının həyata keçirilməsinə görə məsul olan dövlət orqanlarının və onların səlahiyyətli şəxslərinin prosessual qərar və hərəkətlərindən şikayət edilməsinin və həmin şikayətlərə baxılmasının, onların həllinin xüsusi qaydası nəzərdə tutulmuşdur.

Şikayət etmək hüququndan cinayət prosesinin bütün mərhələlərində istifadə edilə bilinsə də, hər bir mərhələdə bu hüququn həyata keçirilməsinin özünəməxsus xüsusiyyətləri də mövcuddur. Bu xüsusiyyətlər şikayət etmək hüququnun və bu şikayətlərə baxaraq onları həll etmək səlahiyyətlərinə malik olan subyektlərin dairəsinin, ayrı-ayrı situasiyalarda şikayət etmək hüququnun obyekt və predmetlərinin, bu hüquqdan istifadə edilməsinə yol verilən halların, prosessual müddətlərin, şikayət edilərkən və bu şikayətlərə baxılarkən riayət edilməli olan prosessual qaydaların və s. bu kimi elementlərin fərqlilikləri ilə şərtlənmişdir. Şikayət etmək hüququnun realizə edilməsinin məhkəməyədək icraatda xüsusi mənası var, çünki məhkəməyədək icraatda qanunla qorunan maraqlarına və hüquqlarına qeyri-qanuni və əsassız müdaxilə edilə biləcək şəxslərin dairəsi kifayət qədər genişdir.

Cinayət mühakimə icraatında iştirak edən istənilən şəxsin istənilən şikayəti öz hüquqi mahiyyətinə görə dövlət orqanına, onun səlahiyyətli şəxsinə ünvanlanmış müstəqil müraciət növü olub, rəsmi xarakter daşıyır. Hüquqi baxımdan, şikayət şəxsiyyətin hüququnun pozulduğu, yaxud qanunla qorunan maraqlarının təmin edilmədiyi hallarda edilən müraciətdir. Hüququn pozulması, yaxud məhdudlaşdırılması, qanuni maraqların təmin edilməməsi ilə bağlı olmayan müraciətlər isə şikayət hesab edilmir, onlar tamamilə başqa hüquqi təbiətə malikdir. Məsələn, ərizə növündə müraciət özü-özlüyündə şikayət hesab edilmir. Ərizə növündə müraciət şəxsiyyətin qanunla ona verilmiş subyektiv hüquqlarının realizə edilməsi üçün edilir. Lakin ərizənin qanunla müəyyən edilmiş qaydada baxılması və həlli üçün zəruri

tədbirlərin görülməməsi artıq şikayət növündə müraciətin edilməsi üçün hüquqi əsas yaradır.

Cinayət prosesində şikayət qanunla təminat verilmiş hüquqların pozulması hallarını səlahiyyətli dövlət orqanlarının diqqətinə çatdırmaq, pozulmuş hüquqları müdafiə etmək və onların bərpasına nail olmaq imkanıdır. Bu səbəbdən, şikayətin əsasında, müraciətin digər növlərindən fərqli olaraq, pozulmuş hüququn bərpasına dair tələb durur. Nəzərə alınmalıdır ki, şikayət reallıqda qanuni həyata keçirilmiş prosessual hərəkətlərdən də, kifayət qədər əsaslandırılmış prosessual qərarlardan da edilə bilər, çünki şikayətin verildiyi anda mübahisələndirilən hərəkətin, yaxud qərarın qeyri-qanuniliyi və ya əsassızlığı barədə dərhal nəticə hasil etmək qeyri-mümkündür və bunun üçün müvafiq araşdırılmanın aparılması labüddür. Şikayətin edilə bilməsi üçün şikayət edən şəxsin hər hansı bir prosessual hərəkətlə, yaxud prosessual qərarla onun hüquqlarının pozulmuş olduğunu hesab etməsi kifayətdir.

CPM-də xüsusi icraatlar sırasında məhkəmə nəzarəti də yer alır. Bu icraat cinayət-prosessual qanunvericilik üçün tamamilə yenidir və özündə məhkəməyə şikayət etmək institutunu da ehtiva edir. Bu institut hüquqların və azadlıqların pozulmuş olması haqqında məlumatın mövcud olduğu hallarda əməliyyat-axtarış fəaliyyəti orqanlarının, təhqiqat və istintaq fəaliyyəti orqanlarının, o cümlədən, prokurorluq orqanlarının səlahiyyətli subyektlərinin hərəkət və qərarları üzərində məhkəmə nəzarəti mexanizmini işə salır.

Məhkəmə nəzarəti qaydasında icraat apararkən məhkəmə əsasən iki vəzifəni yerinə yetirir. Birincisi, məhkəmə cinayət təqibi orqanlarının müvafiq səlahiyyətli vəzifəli şəxslərinin müxtəlif prosessual hərəkətlərinin və prosessual qərarlarının qanuniliyini təmin edir. İkincisi, məhkəmə cinayət mühakimə icraatında iştirak edən şəxslərin hüquq və azadlıqlarını qoruyur, sonuncuların qeyri-qanuni və kifayət qədər əsas olmadan məhdudlaşdırılması imkanlarını istisna edir, uzanan, davam edən hüquq pozuntusu hallarına son qoyur, pozulmuş, qeyri-qanuni və əsassız məhdudlaşdırılmış hüquqları bərpa edir.

Məhkəmə nəzarəti qaydasında şikayət etmək hüququ olan subyektlərin bir qismi CPM-in 449.2-ci maddəsində dəqiq göstərildiyi üçün təcrübədə onlara münasibətdə şikayət etmək hüququnun mövcudluğu ilə bağlı məsələnin həllində çətinlik yaranmır. Lakin həmin maddədə digər şəxslər ifadəsindən istifadə edildiyi üçün bu ifadənin təsiri altına düşən subyektlərin dairəsinin müəyyən edilməsi hüquqi mövqe bildirilməsini tələb edir.

Konstitusiya Məhkəməsi nəzərdən keçirilən qərarında qeyd edilən məsələ ilə bağlı belə hüquqi mövqe bildirmişdir ki, CPM-in 449.2-ci maddəsinin mənasına görə, cinayət mühakimə icraatının iştirakçısı olan şəxslər, eləcə də, onları təmsil edən subyektlər – müdafiəçilər, qanuni nümayəndələr, cinayət təqibi orqanlarının müvafiq səlahiyyətli vəzifəli şəxslərinin prosessual qərar və hərəkətlərindən, habelə müvafiq prosessual qərar qəbul etməli olduqları, yaxud prosessual hərəkəti yerinə yetirməli olduqları halda bunu etməmələrindən, yəni hərəkətsizlik göstərmələrindən o hissəsə şikayət edə bilərlər ki, həmin prosessual qərar, hərəkət və ya hərəkətsizlik cinayət mühakimə icraatında iştirak edən müvafiq subyektin qanunla qorunan maraqlarına, yaxud hüquqlarına toxunmuş olsun. Cinayət mühakimə icraatının iştirakçısı olmayan şəxsin isə müvafiq icraat hüdudlarında məhkəmə nəzarəti qaydasında şikayət etmək hüququ tanınmır. Bununla belə, məhkəmələr şəxsiyyətin qanunla qorunan maraqlarına və hüquqlarına müdaxilə edən prosessual qərar və hərəkətlərdən məhkəmə nəzarəti qaydasında şikayət etmək hüququnun mövcud olub-olmamasını qiymətləndirərkən konkret şəxsin təkcə formal hüquqi vəziyyətini, yəni iş üzrə rəsmən hansı prosessual statusda çıxış etməsini deyil,

həm də onun faktiki vəziyyətini, yəni rəsmi prosessual status qazanıb-qazanmamasından asılı olmayaraq, de facto hansı vəziyyətdə olmasını diqqətə almalı və şəxsin olduğu faktiki vəziyyətdə onun hansı hüquqlara malik olduğunu nəzərə almalıdırlar.

Yekun olaraq, Konstitusiya Məhkəməsi 05 avqust 2009-cu il tarixli Qərarında belə bir hüquqi mövqe sərgiləmişdir ki, əgər cinayət təqibini həyata keçirən orqanların vəzifəli şəxslərinin qəbul etdikləri prosessual qərarlar, yaxud həyata keçirdikləri prosessual hərəkətlər, eləcə də, qərar qəbul etməli və ya prosessual hərəkət etməli olduqları halda hərəkətsizlik göstərmələri cinayət prosesinin digər iştirakçılarının, o cümlədən, şahidlərin qanunla qorunan maraqlarına və hüquqlarına toxunmuş olarsa, onların konstitusion hüquq və azadlıqlarına zərər vurmaq, yaxud onlar üçün ədalət mühakiməsinin əlçatanlığını çətinləşdirmək təhlükəsi yaradarsa, bu hallarda həmin şəxslər də məhkəmə nəzarəti qaydasında müvafiq prosessual qərardan, hərəkətdən və ya hərəkətsizlikdən şikayət etmək hüququna malik olmalıdır [3].

Konstitusiya Məhkəməsi Plenumunun 17 iyun 2010-cu il tarixli Qərarında da məhkəmə nəzarəti qaydasında şikayət vermək hüququ olan subyektlərin dairəsi məsələsinə toxunulmuş və həmin Qərarda ifadə edilmiş hüquqi mövqenin mahiyyətinə görə, ölməsi ilə əlaqədar barəsində cinayət təqibinə, yaxud cinayət işinə xitam verilmiş şəxsin müdafiəçisinin və yaxın qohumlarının da müvafiq xitam qərarından məhkəmə nəzarəti qaydasında şikayət vermək hüququ tanınmalıdır [4].

Yeri gəlmişkən, qeyd edilməlidir ki, müvafiq məsələnin həlli Konstitusiya Məhkəməsinin baxılan qərarında parlamentə tövsiyə edilmiş olsa da, hələ də CPM-in 449.3-cü maddəsində məhkəmə nəzarəti qaydasında şikayət vermək hüququ olan subyektlər sırasında barəsində cinayət təqibinə və ya cinayət işinə ölməsi ilə əlaqədar xitam verilmiş şəxsin yaxın qohumlarının və müdafiəçisinin adı təsbit edilməmişdir. Qanunvericiliyin bu boşluğunun aradan qaldırılması məqsədi ilə hesab edirik ki, CPM-ə aşağıdakı məzmunda 449.2.1-1-ci maddənin əlavə edilməsi zəruridir:

"449.2.1-1. ölməsi ilə əlaqədar barəsində cinayət təqibinə və ya cinayət işinə xitam verilmiş, habelə cinayət işinin başlanması rədd edilmiş şübhəli və ya təqsirləndirilən şəxsin, eləcə də şübhəli və ya təqsirləndirilən şəxs qismində tanınanadək ölmüş şəxsin yaxın qohumları və müdafiəçisi".

Konstitusiya Məhkəməsinin Plenumunun 17 aprel 2012-ci il tarixli Qərarında ifadə edilmiş hüquqi mövqenin mahiyyətinə görə, məhkəmə nəzarətinin həyata keçirilməsi ədalət mühakiməsinin həyata keçirilməsinin xüsusi formasıdır. Məhkəmə nəzarəti həm də məhkəmənin həyata keçirdiyi cinayət-prosessual funksiyadır. Məhkəmə nəzarəti funksiyasının məqsədi cinayət təqibi, o cümlədən əməliyyat-axtarış fəaliyyəti orqanlarının səlahiyyətli şəxsləri tərəfindən qəbul edilən qərarların, yerinə yetirilən hərəkətlərin, başqa sözlə, bu orqanların fəaliyyətinin qanuni olmasının təmin edilməsindən, cinayət təqibinin və əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar şəxsin qanunla qorunan maraqlarının, konstitusion hüquqlarının və azadlıqlarının qeyri-qanuni və kifayət qədər əsaslar olmadan məhdudlaşdırılması risklərinin istisna edilməsindən, şəxsi bu hallardan qorumaqdan ibarətdir. Məhkəmə nəzarətinin predmetini şəxsiyyətin konstitusion hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yönəlmiş istintaq hərəkətlərinin məcburi qaydada həyata keçirilməsi, prosessual məcburiyyət tədbirlərinin tətbiq olunması, eləcə də, əməliyyat-axtarış tədbirlərinin realizəsi ilə bağlı səlahiyyətli orqanlar (vəzifəli şəxslər) tərəfindən qaldırılmış vəsatətlərə və verilmiş təqdimatlara, habelə cinayət prosesi aparan dövlət orqanlarının

vəzifəli şəxslərinin qəbul etdikləri prosessual qərarlardan və həyata keçirmiş olduqları prosessual hərəkətlərdən verilmiş şikayətlərə baxılması təşkil edir. CPM-in 442-ci və 449-cu maddələrinin mənasına görə, müvafiq birinci instansiya məhkəməsi məhkəmə nəzarəti qaydasında cinayət prosesi aparan dövlət orqanlarının vəzifəli şəxslərinin qəbul etdikləri prosessual qərarlardan və ya həyata keçirmiş olduqları prosessual hərəkətlərdən yalnız şübhəli və ya təqsirləndirilən şəxs, yaxud onların müdafiəçiləri, zərərçəkmiş şəxs, yaxud onun qanuni nümayəndəsi, eləcə də, qəbul edilmiş prosessual qərar və ya həyata keçirilmiş prosessual hərəkətlə hüquqları və azadlıqları məhdudlaşdırılmış digər şəxslər tərəfindən verilmiş şikayətlərə baxa bilər [5].

Konstitusiya Məhkəməsinin Plenumunun 12 fevral 2015-ci il tarixli Qərarında ifadə edilmiş hüquqi mövqenin mahiyyətinə görə, məhkəmə nəzarəti öz funksional yükünü, bir qayda olaraq, məhkəməyədək icraatda daşıyır. Məhkəmə nəzarəti məhkəmə fəaliyyətinin müstəqil növü olub, təhqiqat, istintaq və prokurorluq orqanlarının vəzifəli şəxslərinin cinayət-prosessual fəaliyyəti nəticəsində şəxsiyyətin hüquqlarına və azadlıqlarına qeyri-qanuni müdaxilələrin qarşısının alınmasına və belə müdaxilələr nəticəsində pozulmuş hüquqların bərpa olunmasına xidmət edir. Məhkəmə nəzarətinin hüquqi əhəmiyyəti Konstitusiyanın 33-cü maddəsinin II hissəsinin, 60-cı maddəsinin, 71-ci maddəsinin VII hissəsinin və bir sıra digər maddələrinin müddəalarından irəli gəlir.

Məhkəmə nəzarəti milli cinayət-prosessual qanunvericilik üçün prokuror nəzarəti institutu ilə müqayisədə yeni hesab edilə bilər və bu iki nəzarət növləri bir-birindən fərqlənir. Belə ki, prokuror nəzarəti ümumi olaraq, təhqiqat, istintaq və əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların fəaliyyətində qanunçuluq prinsipinin təmin edilməsinə, qanunçuluq rejiminə əməl edilməsinə yönəlmişdir. Məhkəmə nəzarəti zamanı isə həmin orqanların fəaliyyətində şəxsiyyətin hüquqlarının və azadlıqlarının məhdudlaşdırılmasına yönəlmiş qərar, hərəkət və tədbirlərin qanuni olub-olmaması, kifayət qədər əsaslandırılmış olub-olmaması, mütənasib olub-olmaması, məqsədəmüvafiq olub-olmaması, həqiqətən də təxirəsalınmaz hallarda qəbul edilmiş, yaxud həyata keçirilmiş olub-olmaması yoxlanılır. Başqa sözlə, prokuror nəzarətindən fərqli olaraq, məhkəmə nəzarəti ibtidai araşdırma aparan səlahiyyətli şəxslərin cinayət-prosessual fəaliyyəti zamanı şəxsiyyətin hüquqlarına və azadlıqlarına qeyri-qanuni müdaxilə hallarının qarşısının alınması üçün həyata keçirilir.

Əməliyyat-axtarış fəaliyyətinə münasibətdə də Baş prokuror və onun müvəkkil etdiyi prokurorlar tərəfindən həyata keçirilən prokuror nəzarəti və müvafiq birinci instansiya məhkəmələri tərəfindən həyata keçirilən məhkəmə nəzarəti institutlarının həm bir-birinə bənzər, həm də bir-birindən fərqli cəhətləri mövcuddur. Əməliyyat-axtarış fəaliyyəti üzərində həyata keçirilən prokuror nəzarətinin hüdudları qanunla müəyyən edilmişdir və həmin hüdudlara görə, əməliyyat-axtarış tədbirlərinin təşkil edilməsi, onların həyata keçirilməsinin üsulları, bu tədbirlərin həyata keçirilməsi zamanı istifadə olunan vasitələr haqqında məlumatlar prokuror nəzarətinin predmetindən kənarda qalır. Konstitusiya Məhkəməsinin hüquqi mövqeyinə görə, məhkəmə nəzarətinin predmeti ilə prokuror nəzarətinin predmeti arasında fərq mövcud olsa da, qanunda təsbit edilmiş yuxarıdakı tələbi məhkəmə nəzarətinə də tətbiq etmək mümkündür.

Əməliyyat-axtarış fəaliyyəti orqanlarının və ibtidai araşdırma orqanlarının ümumi fəaliyyətinə münasibətdə qanunçuluq üzərində nəzarətin həyata keçirilməsi məhkəmə nəzarətinin mahiyyətindən irəli gəlmir, çünki məhkəmə orqanı bu zaman prosessual funksiyaların bölgüsü prinsipini rəhbər tutur. Odur ki, törədilmiş və

ya hazırlanan cinayətlər haqqında ərizə və digər məlumatların qeydiyyata alınması, ibtidai araşdırma fəaliyyətinə başlanılması barədə prosessual qərarların qəbul edilməsi, şəxsiyyətin hüquqlarının və azadlıqlarının məhdudlaşdırılmasına yönəlməmiş prosessual hərəkətlərin yerinə yetirilməsi, yaxud tədbirlərin tətbiq edilməsi məhkəmə nəzarətinin predmetinə aid edilə bilməz. Məhkəmə nəzarətinin predmetinə şəxsiyyətin hüquqları və azadlıqlarının təmin olunması ilə bağlı cinayət təqibi orqanları və prokurorluğun qəbul etdiyi prosessual qərarların qanuni və əsaslı olub-olmamasının yoxlanılmasının aid olması, onu prokuror nəzarətindən fərqləndirir [6].

Konstitusiya Məhkəməsinin 12 mart 2015-ci il tarixli Qərarında ifadə edilmiş hüquqi mövqenin mahiyyətinə görə, məhkəmə nəzarəti qaydasında şikayət etmək hüququ olan subyektlər cinayət təqibi orqanının və prokurorluğun heç də bütün prosessual qərarlarından və prosessual hərəkətlərindən deyil, yalnız adları qanunda sadalanan prosessual qərarlarından və prosessual hərəkətlərindən şikayət edə bilərlər. Bu zaman CPM-in 449.3-cü maddəsi rəhbər tutulmalıdır. Konstitusiya Məhkəməsi 12 mart 2015-ci il tarixli Qərarında CPM-in 449.3-cü maddəsində təsbit edilmiş dairənin qəti xarakter kəsb etməsi haqqında hüquqi mövqe bildirmişdir və göstərmişdir ki, cinayət təqibi orqanlarının və prokurorluğun həmin maddədə göstərilməmiş digər prosessual qərarlarından və prosessual hərəkətlərindən məhkəmə nəzarəti qaydasında şikayət edilməsinə yol verilmir.

Bununla belə, cinayət təqibi orqanının və prokurorluğun prosessual qərarlarından və prosessual hərəkətlərindən məhkəmə nəzarəti qaydasında şikayət etmək hüququ olan subyektlərin dairəsi məsələsinə gəlincə, Konstitusiya Məhkəməsi diqqətə çatdırır ki, CPM-in 449.2.3-cü maddəsində bu dairə müəyyən edilərkən yalnız müvafiq subyektlərin prosessual qaydada cinayət prosesinin tərəflərindən biri kimi, yaxud cinayət prosesinin iştirakçısı kimi tanınmış olması meyarı rəhbər tutulmamış, yəni məhkəmə nəzarəti qaydasında şikayət etmək hüququna malik olan şəxslərin cinayət prosesinin tərəfi kimi tanınması, yaxud cinayət prosesinin iştirakçısı kimi tanınması əsas götürülməmişdir. Bu zaman əsas qismində cinayət təqibi orqanının və prokurorluğun prosessual qərarlarının və prosessual hərəkətlərinin, yaxud müvafiq prosessual qərarın qəbul edilməli olduğu, müvafiq prosessual hərəkətin yerinə yetirilməli olduğu hala belə qərarın qəbul edilməməsinin və ya hərəkətin yerinə yetirilməməsinin, yəni hərəkətsizlik göstərilməsinin şəxsiyyətin hüquqlarının və azadlıqlarının pozulması götürülmüşdür. Bu mənada, CPM-in 449.2.3-cü maddəsindəki digər şəxslər termini cinayət prosesinin tərəflərinə aid olmayan və cinayət prosesinin iştirakçısı olmayan şəxsləri də ehtiva edir. Belə şəxslər sırasına, ilk növbədə, CPM-in X fəslində nəzərdə tutulan subyektlər, eləcə də CPM-in 204.3-cü, 148.2.2-ci, 238.4-cü, 237.2-ci, 95.6.11-ci, 228.2-ci, 171-ci, 166.2-ci, 164.3-cü və 239.5-ci maddələrində göstərilən subyektlər daxildir.

Nəzərdən keçirilən qərarında Konstitusiya Məhkəməsi diqqətə çatdırır ki, cinayət-prosessual qanunvericilikdə prosessual vəziyyəti qismən tənzim olunan və adlarının cinayət-prosessual qanunvericiliyin ayrı-ayrı müddəalarında çəkilmiş olmasına baxmayaraq, prosessual statusları ümumiyyətlə tənzim olunmayan iştirakçılar da mövcuddur. Şikayət etmək hüququ həm cinayət-prosessual qanunvericilikdə prosessual statusu tam tənzim olunan və bu hüquqa malik olması birbaşa göstərilən şəxslərə, həm cinayət-prosessual qanunvericilikdə prosessual vəziyyəti qismən tənzim olunan şəxslərə, həm də adlarının cinayət-prosessual qanunvericiliyin ayrı-ayrı müddəalarında çəkilmiş olmasına baxmayaraq, prosessual statusları ümumiyyətlə tənzim olunmayan şəxslərə məxsusdur. Bunun səbəbi ondadır ki, cinayət təqibi orqanı və

ya prokurorluq orqanının vəzifəli şəxsi prosessual müəyyən qərarlar qəbul edərkən, yaxud prosessual hərəkətlər yerinə yetirərkən cinayət-prosessual qanunvericilikdə prosessual vəziyyəti qismən tənzim olunan şəxslər və adlarının cinayət-prosessual qanunvericiliyin ayrı-ayrı müddəalarında çəkilmiş olmasına baxmayaraq, prosessual statusları ümumiyyətlə tənzim olunmayan şəxslər de facto cinayət-prosessual hüquq münasibətinin subyektinə çevrilirlər və bu anlamda, həmin münasibətin davam etdiyi müddətcə onların qanunla qorunan maraqları, yaxud hüquqları pozulma və ya məhdudlaşdırılmaya məruz qala bilər. Odur ki, CPM-in 449.2.3-cü maddəsində digər şəxslər terminindən istifadə olunması, belə qənaətə gəlməyə əsas verir ki, hər hansı bir şəxs cinayət prosesinin tərəfi və ya cinayət prosesinin iştirakçısı olmasa da, bu və ya digər şəkildə cinayət-prosessual hüquq münasibətlərinə daxil olaraq, prosessual hüquqlar əldə edərsə, yaxud üzrinə prosessual vəzifələr qoyularsa, bu şəxslərin konstitusion və digər qanuni hüquqları və azadlıqlarının cinayət təqibi orqanı və ya prokurorluq orqanının vəzifəli şəxslərinin prosessual qərarları və ya prosessual hərəkətləri nəticəsində pozulduğu hallarda, onlar da bu prosessual qərarlardan və prosessual hərəkətlərdən məhkəmə nəzarəti qaydasında şikayət verə bilərlər [7].

Konstitusiya Məhkəməsinin 31 avqust 2022-ci il tarixli Qərarında əks olunmuş hüquqi mövqenin mahiyyətinə görə, CPM-in 453.10-cu maddəsində məhkəmə qərarlarının preklyuziv qüvvəsi haqqında müddəa təsbit edilmişdir, çünki adı çəkilən maddənin göstərişlərinə görə, əgər apellyasiya instansiyası məhkəməsi məhkəmə nəzarəti qaydasında birinci instansiya məhkəməsi tərəfindən onun özünün də məhkəmə nəzarəti qaydasında çıxarmış olduğu qərarın qanuni olub-olmamasını, yaxud əsaslı olub-olmamasını artıq yoxlayaraq qərar qəbul etmişdirsə, birinci instansiya məhkəməsinin qanuniliyi və əsaslılığı yoxlanılmış qərarından təkrarən verilmiş şikayətlərə və ya protestlərə baxılması istisna edilir.

Konstitusiya Məhkəməsinin 31 avqust 2022-ci il tarixli Qərarında, həmçinin cinayət işi başlamanın rədd edilməsi məsələsinin məhkəmə nəzarətinin predmetinə aid olması ilə bağlı hüquqi mövqelər də yer almışdır. Belə ki, Konstitusiya Məhkəməsinin hüquqi mövqeyinə görə, cinayət işinin başlanmasının rədd edilməsi barədə qərarın qanuni və əsaslı olub-olmamasının yoxlanılmasına yönəlmiş məhkəmə nəzarəti cinayət prosesinin birinci mərhələsində hüququ real olaraq pozulan, yaxud pozulma təhdidi ilə üzləşən insanların qanunla qorunan maraqlarının və hüquqlarının müdafiə olunması və bərpa edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir və Konstitusiyada təsbit edilmiş məhkəməyə müraciət etmək hüququnun realizə vasitəsi kimi çıxış edir. Cinayət işi başlamanın rədd edilməsi məsələsinin məhkəmə nəzarətinin predmetinə aid olması, yəni bu prosessual aktın qanuni və əsaslı olub-olmamasının məhkəmə nəzarəti qaydasında yoxlanıla bilməsinin mahiyyəti ondadır ki, bu zaman müvafiq qərarın qanuniliyi və əsaslığının yoxlanılması hüquq-mühafizə sisteminə aid olan orqanlar tərəfindən deyil, müstəqil olan və qərəzsiz hesab edilən məhkəmə tərəfindən yerinə yetirilir. Bu zaman məhz məhkəmə hakimiyyəti orqanı cinayət işinin başlanmasının rədd edilməsi haqqında prosessual qərarın əsasını təşkil edən faktiki halları obyektiv bir şəkildə qiymətləndirir və bunun nəticəsi olaraq, özünün əsaslandırılmış qərarını çıxarır ki, bu da şəxsiyyətin hüquq və qanunla qorunan maraqlarının təminatına xidmət edir. Cinayət işinin başlanmasının rədd edilməsi haqqında prosessual qərarın məhkəmə nəzarəti qaydasında qanuni və əsaslı olub-olmamasının yoxlanılması nəticəsində qəbul edilən məhkəmə qərarı hamı üçün məcburi xarakter kəsb edir.

Məhkəmə nəzarəti qaydasında qəbul edilmiş bu qərar da dövlətin məcburetmə qüvvəsi

ilə təminat altına alınır, hüquqi mübahisənin mahiyyətcə həllini əks etdirir və ədalət mühakiməsi aktı hesab olunur. Odur ki, CPM-in 453.10-cu maddəsində təsbit edilmiş məhkəmə qərarlarının preklyuziv qüvvəsi haqqında qayda yer olaraq, həbs qətimkan tədbiri haqqında məsələnin birinci instansiya məhkəməsi tərəfindən həll edilməsi zamanı qəbul edilmiş qərarın qanuni və əsaslı olub-olmamasının yoxlanılması prosedurlarına həsr edilmiş maddədə nəzərdə tutulmuş olmasına rəğmən, məhkəmə qərarlarının preklyuziv qüvvəsi haqqında qayda cinayət işi başlamanın rədd edilməsi haqqında verilmiş şikayətlərə münasibətdə də tətbiq edilməlidir [8].

Konstitusiya Məhkəməsinin 25 iyun 2024-cü il tarixli Qərarında göstərilmiş hüquqi mövqenin mahiyyətinə görə, CPM-də elə bir norma mövcud deyildir ki, o, cinayət prosesi aparan orqanın prosessual qərarlarının, yaxud prosessual hərəkətlərinin qanuni olub-olmamasını yoxlamaq məqsədi ilə məhkəmə nəzarətinin həyata keçirilməsini cinayət mühakimə icraatının hər hansı bir mərhələsi ilə məhdudlaşdırsın.

Bir qayda olaraq, məhkəmə nəzarəti məhkəməyədək icraatda işləyən bir mexanizm olsa da, cinayətprosesitərəflərinincinayətprosesinihəyata keçirən orqanların vəzifəli şəxslərinin prosessual qərarlarının və ya prosessual hərəkətlərinin qanuniliyinin mübahisələndirilməsi məqsədi ilə onlardan məhkəmə nəzarəti funksiyasını yerinə yetirən məhkəməyə şikayət etmək hüququnun məhkəməyədək icraatla məhdudlaşdırılmadığı nəzərə alınmalıdır.

Belə ki, təcrübədə elə hallar olur ki, bəzi prosessual qərarlar cinayət prosesi iştirakçısına qanunla nəzərdə tutulan müddətlərdən gec təqdim olunur, yaxud bu və ya digər prosessual qərar cinayət prosesi iştirakçısına son mərhələdə verilir. Belə olanda həmin cinayət prosesi iştirakçısı müvafiq prosessual qərarı, yaxud prosessual hərəkəti sonradan mübahisələndirmək imkanına malik olur. Həmçinin, elə hallar da ola bilər ki, cinayət təqibinə məruz qalan şəxsin məhkəməyədək icraatda psixoloji durumu yerində olmasın və o, daha sonralar məhkəməyədək icraatda cinayət prosesi aparan vəzifəli şəxslərin prosessual qərarlarından, yaxud prosessual hərəkətlərindən şikayət vermək istəsin. Bunları nəzərə almaqla, Konstitusiya Məhkəməsi belə mövqe sərgiləmişdir ki, məhkəmə nəzarətinin həyata keçirilməsini cinayət mühakimə icraatının bu və ya digər mərhələsi ilə məhdudlaşdırmaq yolverilməzdir [9].

Konstitusiya Məhkəməsinin 02 dekabr 2024-cü il tarixli Qərarında ifadə edilmiş hüquqi mövqenin mahiyyətinə görə, CPM-in 442.1-ci maddəsindəki ibtidai araşdırmanın aparıldığı yer termini cinayətin törədildiyi yeri də ehtiva edir və müxtəlif istintaq hərəkətləri, yaxud əməliyyat-axtarış tədbirlərinin aparıldığı yerlə eyniyyət təşkil etmir. Ölkənin hüquq-mühafizə sistemində elə istintaq orqanları vardır ki, onların ərazi aidiyyəti bir inzibati ərazi vahidi ilə məhdudlaşmır. Belə orqanların müvafiq səlahiyyətli vəzifəli şəxsləri tərəfindən qəbul edilmiş prosessual qərarlar və ya həyata keçirilmiş prosessual hərəkətlər üzərində məhkəmə nəzarətinin həyata keçirilməsi qaydaları isə qüvvədə olan cinayət-prosessual qanunvericiliklə kifayət qədər nizamlanmır. Konstitusiya Məhkəməsi adı çəkilən Qərarında göstərmişdir ki, bu məsələnin həlli parlamentə tövsiyə edilməlidir [10].

Nəzərə alsaq ki, bu məsələ parlament tərəfindən hələ də həll edilməmişdir, hesab edirik ki, bu probelmin normayaratma baxımından həlli üçün CPM-ə aşağıdakı redaksiyada 442.1-1-ci maddənin əlavə edilməsi məqsədəuyğun olardı:

“442.1-1. Ərazi üzrə istintaq aidiyyəti bir inzibati ərazi vahidi ilə məhdudlaşmayan müvafiq icra hakimiyyəti orqanı, yaxud prokurorluq orqanı tərəfindən qəbul edilmiş prosessual qərarlar, yerinə yetirilmiş prosessual hərəkətlər üzərində məhkəmə nəzarəti həmin orqanın yerləşdiyi in-

zibati ərazi vahidində yerləşən birinci instansiya məhkəməsi tərəfindən həyata keçirilir".

Konstitusiya Məhkəməsinin 17 aprel 2026-cı il tarixli Qərarında göstərilmiş hüquqi mövqenin mahiyyətinə görə, CPM-in 148.6-cı və 447.2-ci maddələrinin sistemli təfsiri onu göstərir ki, qanunverici tərəfindən müvafiq məsələlərin həlli üçün 24 saatlıq müddət müəyyən edilərkən məqsəd şəxsiyyətin azadlıq hüququnun məhdudlaşdırılması müddətinin genişləndirilməsi olmamışdır. Bunun əksinə olaraq, məqsəd ondan ibarət olmuşdur ki, məhz şəxsin tutulmuş vəziyyətdə qalmasına yol verilən 48 saatlıq müddət ərzində məhkəmə nəzarəti də zamanında və tam şəkildə həyata keçirilsin [11].

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının Konstitusiyası. – Bakı: Hüquq Yayın Evi, – 2019. – 63 s.

2. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin 2 və 3-cü abzaslarının müddəalarının şərh edilməsi haqqında" 06 yanvar 2004-cü il tarixli Qərarı: [Elektron resurs] / URL: https://constcourt.gov.az/az/decision/83

3. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 449.2.3-cü maddəsinin şərh edilməsinə dair" 05 avqust 2009-cu il tarixli Qərarı: [Elektron resurs] / URL: https://constcourt.gov.az/az/decision/179

4. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39.1.5 və 41.2-ci maddələrinin şərh edilməsinə dair" 17 iyun 2010-cu il tarixli Qərarı: [Elektron resurs] / URL: https://constcourt.gov.az/az/decision/186

5. Azərbaycan Respublikasının Konstitusıya Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi kollegiyasının 07 iyul 2011-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 17 aprel 2012-ci il tarixli Qərarı: [Elektron resurs] / URL: https://constcourt.gov.az/az/decision/235

6. Azərbaycan Respublikasının Konstitusıya Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 137 və 445.2-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 12 fevral 2015-ci il tarixli Qərarı: [Elektron resurs] / URL: https://constcourt.gov.az/az/decision/1159

7. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 449.2.3-cü maddəsinin şikayət vermək hüququ olan "digər şəxslər" müddəasının şərh edilməsinə dair" 12 mart 2015-ci il tarixli Qərarı: [Elektron resurs] / URL: https://constcourt.gov.az/az/decision/313

8. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 453.10-cu maddəsinin şərh edilməsinə dair" 31 avqust 2022-ci il tarixli Qərarı: [Elektron resurs] / URL: https://constcourt.gov.az/az/decision/1311

9. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsi və 71-ci maddəsi baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 442, 443, 444, 445, 447 və 449-cu maddələrinin əlaqəli şəkildə şərh olunmasına dair" 25 iyun 2024-cü il tarixli Qərarı: [Elektron resurs] / URL: https://constcourt.gov.az/az/decision/1435

10. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Konstitusiyasının 62-ci maddəsinin tələbləri baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 442.1-ci maddəsinin həmin Məcəllənin 207.5, 215.7 və 216.2-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 02 dekabr 2024-cü il tarixli Qərarı: [Elektron resurs] / URL: https://constcourt.gov.az/az/decision/1448

11. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Konstitusiyasının 28 və 60-cı maddələri baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 148.6 və 447.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 17 aprel 2026-cı il tarixli Qərarı: [Elektron resurs] / URL: https://constcourt.gov.az/az/decision/1504

Мамедов Фарид Ариф оглу,
главный методист Академии юстиции Министерства юстиции
Азербайджанской Республики

ПРАВОВЫЕ ПОЗИЦИИ КОНСТИТУЦИОННОГО СУДА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ О СУДЕБНОМ КОНТРОЛЕ

РЕЗЮМЕ

Основу всех уголовно-процессуальных институтов, в том числе и основу института судебного контроля в уголовном процессе составляет Конституция. В этом смысле, при изучении какого-либо института очень важно знать, как следует его понимать в контексте конституционных положений. Изучение и систематизация правовых положений, предусмотренных в постановлениях Конституционного Суда, является одним из оправдавших себя методов для решения данной задачи. По этой причине, при написании данной статьи автором был выбран именно данный метод. В результате был создан единый доктринальный источник, отражающий в себе правовые положения Конституционного Суда относительно судебного контроля и предложения по совершенствованию уголовно-процессуального законодательства, вытекающие из рекомендаций Конституционного Суда.

Mammadov Farid Arif,
Chief Methodologist of the Justice Academy
of the Ministry of Justice of the Republic of Azerbaijan

LEGAL POSITIONS OF THE CONSTITUTIONAL COURT OF THE REPUBLIC OF AZERBAIJAN ON JUDICIAL CONTROL

SUMMARY

The Constitution forms the basis of all criminal procedural institutions, including the basis of the institution of judicial control in criminal proceedings. In this sense, when studying an institution, it is very important to know how it should be understood in the context of constitutional provisions. The study and systematization of the legal provisions provided for in the decisions of the Constitutional Court is one of the justified methods for solving this problem. For this reason, when writing this article, the author chose this method. As a result, a single doctrinal source was created, reflecting the legal provisions of the Constitutional Court regarding judicial control and proposals for improving criminal procedure legislation arising from the recommendations of the Constitutional Court.

Redaksiyaya daxilolma tarixi: 08.06.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 20.06.2026
Çapa qəbul olunma tarixi: 23.06.2026